# Qalib millətin hünər dastanları




**Hər zaman qəhrəmanlıq, vətənpərvərlik mövzusu ədəbiyyatımızın aparıcı mövzularından olub. Qarabağda 2016-cı ilin Aprel döyüşləri, digər uğurlu əməliyyatlar, ardından isə 27 sentyabrdan 10 noyabra qədər davam edən 44 günlük Zəfər yürüşü bu ovqatın paralel olaraq poeziyada sanballı şəkildə əks olunması baxımından əhəmiyyətlidir.**

AYB-nin son qurultayı üçün "Poeziya" bölməsi üzrə məruzə hazırlamaq şərəfi mənə nəsib olmuşdu. Həmin çalışmamda əsas hissələrdən birini şanlı Zəfər günlərimizin tərənnümü təşkil edirdi. Xüsusi vurğulamağı lazım bildim ki, erməni işğalı, torpaqlarımızın ərazi bütövlüyü kontekstində cərəyan edən bütün hadisələr, nə yaxşı ki, bütövlükdə şeirin diskursunu dəyişdi. "Məzlum xalq" obrazı döyüşkən xalq obrazı ilə əvəz edildi, qalib ordu, qalib əsgər, qalib xalq ifadələri şeirimizdə önə keçdi. Müzəffər Ali Baş Komandan obrazı yarandı, qaçqınlıq, köçkünlük kimi mövzular bir növ yaddaş faktına çevrildi.

Əlbəttə, məğlub ölkənin şairi olaraq coşğulu intonasiyaya köklənmək bir qədər çətin idi. Buna baxmayaraq, poeziyamızın çiyninə düşən vətənpərvərlik ruhunun yüksəldilməsi işi Nəriman Həsənzadə, Füruzə Məmmədli, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Məmməd İsmayıl, Vaqif Bəhmənli, Barat Vüsal, Musa Ələkbərli, Ramiz Duyğun, Şahin Musaoğlu, Ramiz Qusarçaylının və başqa şairlərin şeirlərində qorunmuşdur. Məlum aprel hadisələrindən sonra Qarabağ məsələsi, ordudakı qalibiyyətlə bağlı poeziyada da qürur əzmi millətin gizli emosiyası kimi üzə çıxdı. Böyük Zəferimizdən sonra isə poeziya özünü bütünlükdə qələbə intonasiyasına köklədi. Nəriman Həsənzadənin "İlhamın zəfər yolu", Sabir Rüstəmxanlının "Qarabağa dönüş", Abuzər Turanın "Zəfər çələngi" poemaları, Məmməd İsmayılın "Azərbaycan əsgəri", Vahid Əzizin "Param-parça illər", Vaqif Bəhmənlinin "Vətən əsgəri", Rafiq Yusifoğlunun "Zəfər dastanı", Ramiz Duyğunun "Qalibiyyət dastanı", Zeynal Vəfanın "Bu vuruşdan dönən deyil ordum mənim", Qulu Ağsəsin "Ağdam", İlqar Fəhminin "Balaca kişilər", Əyyub Qiyasın "Diriliş marşı", Gəray Göyyurdun "Dövlətim var, ordum var", Adilə Nəzərin "Bu zəfərin mübarəkdir, ey Vətən", "İki can", Bəsti Əlibəylinin "Qübar və qürur nəğmələri", Zahid Xəlilin "Dəmir yumruq dastanı", Dayandur Sevginin "Biri Əliyevdir, biri Ərdoğan" kimi poetik mətnləri, Elşad Baratın silsilə şeirləri qələbədən sonra yaranan ən yeni ədəbiyyata artıq "ərəfə" poeziya nümunəsi qismində daxil oldu.

AYB sədri Anarın ideya müəllifi olduğu nəfis şəkildə nəşr edilmiş "Qarabağ Dastanı. Otuz ilin həsrəti – 44 günün zəfəri" kitabı Rəşad Məcidin "Şuşa havasının əritdiyi nisgil" adlı ön sözlə başlayıb, Qarabağın tarixi və taleyi ilə bağlı bir-birindən maraqlı publisist yazılarla və "Şeir çələngi" bölməsi ilə davam edir və ideya müəllifinin "Ötən günlərin yazıları", ön söz müəllifinin "Şuşa gör nələr eylər" yazısı ilə sonuclanır. M.Nuri Parmaksızın Türkiyədə nəşr etdirdiyi "Vatan konulu şiirler" toplusunda yüz şairin türk, azərbaycan və ingilis dillərində olmaqla vətənpərvərlik mövzusunda yüz şeiri yer alıb. Dəyanət Osmanlının tərtib etdiyi "Zəfər duyğuları" antologiyasında 50-yədək Azərbaycan və Türkiyə şairinin mübarək zəfərimizi vəsf edən şeirləri toplanılıb.

Musa Urudun "Qarabağ balladası", "Savaş deyir", Əhməd Qəşəmoğlunun "Tarixin türkü", "Cavanşir" poemaları, Əsəd Cahangirin "Xarıgülnar", Abuzər Turanın "Zəfər nəğməsi", İlham Qəhramanın "Yaddaş", Dəyanət Osmanlının "İt nəfsi", Yusif Nəğməkarın "Çanaqqala", Elşən Əzimin "Göy üzündə barmaq izi" və "Bir gün sonra", Balayar Sadiqin "Zəfər simfoniyası", Əlirza Xələflinin "Ayrılıq" və "Dönməzlik yolu", Şahnaz Şahinin "Zəfər nəğmələri", Sevinc Nuruqızının "Çanaqqala keçilməz", Zərəngiz Dəmirçi Qayalının "Cavab ver", Rəfael Tağızadənin "Qara-qırmızı Xocalı", Vaqif İsaqoğlunun "Bizim general", Asif Asimanın "Qayıdış" və "Torpaq harayı", Elnur Uğurun "Hadrut fatehi", Şəfəq Sahiblinin "Səs" və s. poemaları Azərbaycan hərbçisinin qəhrəmanlıq əzmini layiqincə, poetik ustalıqla vəsf edən dəyərli əsərlərdir.

İstedadlı qazi-şairlərimiz Emin Pirinin, Elvin İntiqamoğlunun adlarını çəkməyin də öz yeri var. 44 günlük Vətən müharibəsinin şəhid zabiti, tank tağım komandiri, istedadlı gənc şair Murad Nağıyevin Türkiyə türkcəsində yazdığı şeiri böyük maraqla qarşılanıb. Qələmlərini silaha, süngüyə çevirən həmkarlarımız müharibənin canlı şahidləri kimi duyğu və düşüncələrini bacarıqla ədəbiyyata daşıya biliblər.

Bu gün də qəhrəmanlarımızın, şəhidlərimizin, qazilərimizin tarixi hünəri qələmə alınıb tarixə ərməğan edilməkdədir. Barıt qoxulu həmin əsərlərin çoxunun yüz illər sonra qəhrəmanlığımızın parlaq səhifələrinə çevriləcəyinə ümid edirik.

***İbrahim İLYASLI,***
***Türk Ədəbiyyatı Vakfının fəxri üzvü, şair***

Xalq qəzeti .- 2022.- 22 dekabr.- S.9.